# **Həftəlik**

# *Bülleten*



**125**

**16 Yanvar 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**İlham Əliyev Ağdərədə "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azerbaijan International Mining Company Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri dövlətimizin başçısına kompleks barədə məlumat verdilər. Bildirildi ki, kompleksə mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. "Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır. Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025–2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-ın "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır.



**İlham Əliyev Ağdərə şəhərinin Baş planı ilə tanış olub.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə tanış olub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına Ağdərənin Baş planı barədə məlumat verdi. Bildirildi ki, Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. 2030-cuilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib. Baş planla tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi. Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib.



**Gəncə və Şəmkirdə yeni sənaye parkı yaradılır.**

Fərmanla ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara və yerli resurslara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, habelə regionlarda iqtisadi fəallığın və məşğulluğun daha da artırılması məqsədilə Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkı yaradılacaq. Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500 min manat ayrılıb. Nazirlər Kabineti üç ay müddətində Qərb Sənaye Parkının fəaliyyəti üçün Gəncə şəhəri Yevlax şosesində yerləşən, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş "Azəralüminium" MMC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 81.8 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini təmin edəcək. Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən, bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına keçirilməsi, Qərb Sənaye Parkının fəaliyyətinə cəlb olunması ilə bağlı zəruri tədbirlər görüləcək.



**Zaur Mikayılov: "Bir çox yerlərdə məcburi köçürmələr olacaq".**

"Su təsərrüfatı sistemlərində mühafizə zonalarının təhlükəsizliyinin gücləndirilməsi və istismarın təkmilləşdirilməsi çox vacibdir. Bir az əvvəl qeyd etdiyimiz kimi, bir çox yerlərdə mühafizə zonalarında tikilmiş binaların, evlərin həm bizim sistemlərə, həm də o evlərin təhlükəsizliyinə çox böyük təsiri var". Bu sözləri Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə deyib. "Su, yağış və tullantı sistemlərinin mühafizə zonaları üzrə inventarlaşdırmanın aparılması, həmçinin müvafiq qurumlarla bərabər normativ hüquqi aktların tələblərinə uyğun olaraq mühafizə zonalarının fəaliyyətinə dair tədbirlərin görülməsi zəruridir. Nazirlər Kabinetinə siyahı təqdim edilməklə bir çox yerlərdə məcburi köçürmələr olacaq. Bəzi magistral kanallara əlçatanlığımız olmadığı üçün bəzi yerlərdə bu köçürmələrə də ehtiyac olacaq. Su təsərrüfatı obyektlərinə qanunsuz müdaxilə hallarının qarşısının alınması ilə əlaqədar Sizin bu yaxınlarda imzaladığınız Sərəncamla bəzi qaydalar artıq qüvvəyə minir. Bununla əlaqədar biz bəzi işləri də bu ayın sonuna qədər Nazirlər Kabinetinə təqdim edəcəyik və bu da bizim işimizin daha da inkişaf etməsinə yol açacaq", - Z.Mikayılov deyib.



**Bələdiyyə sənədi ilə ev tikənlərə şad xəbər.**

Bələdiyyə sənədi ilə alınan torpaq sahələrindəki tiklilərə çıxarış almaq mümkün olacaq. Əmlak məsələləri üzrə ekspertlər hesab edirlər ki, Bakıda və Abşeron yarmadasında təqribi 300-500 min sənədsiz ev var ki, bunlar da əsasən bələdiyyə və qeyri yaşayış sahəsi üçün nəzərdə tutulan torpaq sahələrində vaxtı ilə tikilən evlərdir. Ekspert Ramil Osmanlı deyir ki, sənədsiz evlərin leqallaşdırılması bir mərhələdən ibarət deyil. Proses əsasən torpaq sahəsinin hüquqi statusundan asılı olaraq dəyişir. Ekspert deyir ki, bəzi hallarda torpaq sahəsinin yenidən bələdiyyədən alınması zərurəti yaranır ki, bu da əlavə maliyyə öhdəlikləri deməkdir. Ekspert deyir ki, praktikada bu məbləğ bəzən 3500-4000 manata qədər arta bilir. Amma torpaq sahəsi artıq hüquqi baxımdan problem yaratmırsa və yalnız özbaşına tikilinin ilkin qeydiyyatı aparılırsa, xərclər nisbətən azalır. Bu halda əsas ödənişlər texniki pasport və çıxarışın alınması ilə bağlı olur. Burada da orta hesabla çıxarış üçün rüsum və xidmət haqları 200 manata qədər, texniki pasport isə 200-300 manat təşkil edir. Ekspert deyir ki, ümumilikdə, ölçülərdən asılıdır, amma xərclər təqribən 500-1000 manat aralığında olur.



**Azərbaycana xaricdən gətirilən armatur və şüşə listlərdən - GÖMRÜK RÜSUMU TUTULACAQ - MƏBLƏĞ, YENİ QƏRAR**

Azərbaycana xaricdən gətirilən dəmir armaturlar və şüşə listlər üçün müvəqqəti əlavə gömrük yığımları müəyyənləşib.

Bu barədə Nazirlər Kabineti qərar qəbul edib.

Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, dəmirdən və ya aşqarlanmamış poladdan çubuqların (dəmir armaturlar) 1 tonu üçün 150 manat, müxtəlif nomenklatur kodlar altında təsnif olunmuş şüşə listlərin 1 tonu üçün isə 100 manat gömrük yığımları tətbiq ediləcək.

Bu Qərar 2026-cı il 2 yanvar tarixindən tətbiq edilir və 2026-cı il 30 iyun tarixinədək qüvvədədir.

Qeyd edək ki, bu halda İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerləşən sənaye parklarının rezidenti olan hüquqi şəxslər tərəfindən sənaye parklarında istehsal məqsədi ilə xammal kimi idxal istisna olacaq.



**Azərbaycana gətirilən kərpiclər üçün gömrük rüsumu artırıldı.**

Azərbaycana idxal edilən inşaat kərpicləri üçün gömrük rüsumu dəyişib.

Nazirlər Kabineti bununla bağlı "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edib.

Beləliklə, 31 dekabr 2025-ci il tarixədək ölkəyə idxal olunan inşaat kərpiclərinin 1000 ədədi üçün 15 ABŞ dolları gömrük rüsumu tətbiq olunub. Dəyişikliyə əsasən, 1 yanvar 2026-cı ildən 31 dekabr 2028-ci ilədək idxal olunan inşaat kərpiclərinin 1000 ədədi üçün 20 ABŞ dolları gömrük rüsumu tətbiq olunacaq.



**Ən çox bahalaşma bünövrədən tikilən ”novostroyka”larda baş verib.**

2025-ci ildə daşınmaz əmlak bazarının bütün sektorlarında qiymət artımı baş verib. Torpaq sahələri, yaşayış və qeyri-yaşayış sahələri (obyektlər), eləcə də yeni və köhnə binalarda yerləşən mənzillərdə bahalaşma davam edib. Bu barədə Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) İdarə Heyətinin sədri Vüqar Oruc bildirib. Onun sözlərinə görə, ümumiyyətlə il ərzində daşınmaz əmlak orta hesabla 15% bahalaşıb. İlin sonunda isə qiymət artımı daha da sürətlənib: «Bu, həm vətəndaşların, həm də sahibkarların il ərzində topladıqları gəlirlərini ilin sonunda müvafiq istiqamətlərə investisiyalara qoyması ilə bağlıdır. Bu da daha çox daşınmaz əmlak olur. Çünki hazırda investisiya yatırmaq üçün digər istiqamətlər o qədər də əlverişli deyil. Bu baxımdan noyabr-dekabr aylarında əmlakın qiymətində artım daha sürətli olur». AQC sədri qeyd edib ki, ən çox bahalaşma torpaq sahələrində və bünövrədən tikilən tikililərdə baş verib: «Ötən il torpaq sahələri təxminən 20%, bünövrədən tikilən yeni tikililər 16% bahalaşıb». Ekspert əmlak bazarında bahalaşmanın 2026-cı ildə də davam edəcəyini gözləyir. Çünki tikintinin maya dəyəri də artır: «İqtisadi vəziyyət nə qədər çətin və ya maliyyə problemləri mövcud olsa da, daşınmaz əmlakın başa gəlmə xərcləri, onlara yönələn xərclər zaman keçdikcə artıdığna görə - yəni, tikinti materiallarının, işçi qüvvəsinin, yanacağın qiymətlərində artım olduğuna görə, bir kvadratmetrin başa gəlmə xərcləri 2026-cı ildə də artacaq.».



**“Ağ Şəhər”dən Ağa Nemətulla küçəsinə birbaşa yeni yol çəkilir.**

Bakıda yeni yolun çəkilişinə hazırlıq işlərinə başlanılıb. “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”na əsasən, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 24 yol infrastrukturu layihəsinin icrası nəzərdə tutulub. Bildirilib ki, onlardan biri də Xaqani Rüstəmov küçəsi ilə Ağa Nemətulla küçəsini əlaqələndirən yeni yolun tikintisidir. Artıq layihənin icrasına başlanıb. Hazırda Xəqani Rüstəmov küçəsində Babək prospektinə gedən istiqamətdə yol bağlıdır. Nəqliyyat eksperti Ərşad Hüseynov bildirib ki, yeni yolun istifadəyə verilməsi paytaxt ərazisindəki bəzi yolların yükünü əhəmiyyətli dərəcədə azaldacaq. Ekspert qeyd edib ki, yeni layihənin icrası nəticəsində sərnişindaşınmanı təkmilləşdirmək, eləcə də, mikromobillik zolaqları yaratmaq mümkün olacaq. Layihə ilə əlaqədar Avtomobil Yolları Dövlət Agentliyindən vurğulanıb ki, yeni yol tunel vasitəsilə ərazidə mövcud olan dəmir yolu xəttinin altından keçərək inşa ediləcək. Bununla da yeni yol hər iki istiqamətdə nəqliyyat axınını fasiləsiz təmin etmiş olacaq.



**Hörmətli sahibkarlar,**

Sizi 31 mart – 3 aprel 2026-cı il tarixlərində Moskvada keçiriləcək «31-ci Beynəlxalq Tikinti və İnteryer Sərgisi – MosBuild 2026» tədbirində ziyarətçi qismində iştirat etməyə dəvət edirik. MosBuild Rusiyada tikinti, təmir və interyer materialları üzrə ən böyük beynəlxalq platformadır və sektorun aparıcı mütəxəssislərini bir araya gətirir. Sərgi tikinti və interyer sahəsində yenilikləri yerində görmək, yeni tərəfdaşlar tapmaq və bazar trendlərini öyrənmək istəyən mütəxəssislər üçün faydalı olacaq. Assosiasiya üzvləri üçün şirkət nümayəndələri ilə tanışlıq məqsədli VIP ekspozisiya turu nəzərdə tutulub.
Ətraflı məlumat üçün linkə keçid edə bilərsiniz: https://mosbuild.com/
Qeydiyyat: 010 250 03 24

**Hörmətli ATMİA üzvləri,**

Məlumat üçün bildiririk ki, cari ilin 26 yanvar tarixində “Fairmont Bakı” mehmanxanasında Azərbaycan – İsrail Biznes Forumu keçiriləcəkdir. Sözügedən tədbirdə Azərbaycan və İsrail Respublikalarının bir sıra yüksək vəzifəli dövlət rəsmilərinin, o cümlədən biznes nümayəndələrinin iştirakı nəzərdə tutulub. Forum çərçivəsində Azərbaycan və İsrail şirkətləri arasında biznes əlaqələrinin qurulması, əməkdaşlıq imkanlarının müzakirəsi və B2B görüşlərin təşkili planlaşdırılır. Tədbirdə iştirak etməkdə maraqlı olan şəxslərdən 21.01.2026-cı il tarixədək 010 250 03 24 nömrəsi ilə əlaqə saxlamaları xahiş olunur.

**Sərginin adı: BAIEX CEMENTEX 2026**
**Tarixlər: 01 - 04 Fevral 2026-cı il,**
**Məkan: Tehran Daimi Sərgi Meydanı, Tehran (İran),**
İran/Tehranda Beynəlxalq Bitum, Asfalt, Sement, Beton, İzolyasiyalar, Əlaqəli Avadanlıq və Maşınlar Sərgisi.

**Sərginin adı: CEVISAMA 2026**
**Tarixlər: 2026-cı ilin fevralında**
**Məkan: Feria Valensiya, Valensiya (İspaniya)**
Beynəlxalq Keramika Sərgisi, Tikinti Sənayesi üçün Səth Üzlükləri, Santexnika Məmulatları, Armaturlar, Xammal, Maşınlar.

**Sərginin adı: LIGHT OMAN 2026**
**Tarixlər: 02 - 04 Fevral 2026-cı il,**
**Məkan: Oman Konqres və Sərgi Mərkəzi, Maskat (Oman)**
Light Oman işıqlandırma məhsullarının sərgisində dizayn və texnoloji yenilikləri nümayiş etdirir və işıqlandırma icması üçün işıqlandırma trendləri, həlləri və ağıllı bina texnologiyası mənbəyi kimi xidmət göstərir.

**Sərginin adı: TSS OMAN 2026**
**Tarixlər: 02 - 04 Fevral 2026-cı il,**
**Məkan: Oman Konqres və Sərgi Mərkəzi, Maskat (Oman)**
Tile & Stone Show, kafel və təbii daş, ən son daş dizaynları və texnologiyaları və məhsul yenilikləri üçün xüsusi bir ticarət platformasıdır. IDF Oman (Interior Design Furnishing Expo) ilə birgə yerləşir.

**“LAÇIN RAYONUNDA BƏRPA, TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

“Laçın Rayonunda Bərpa, Tikinti Və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Laçın şəhərində yeni yaşayış məhəlləsinin tikintisinin təşkili nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Kənan Əzimzadə, koordinator
Email: kanan.azimzada@lachin.gov.az
Əlaqə telefonu: +994 10 326 97 05



**"AZƏRBAYCAN İDMAN AKADEMİYASI" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Azərbaycan İdman Akademiyası" Publik Hüquqi Şəxsi elan edir.
Elanda Stadionun əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İsmayıl Xasaylı, Satınalma üzrə mütəxəssis
Email: info@sport.edu.az
Əlaqə telefonu: +994 12 564 09 00



**AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Ali Məhkəməsi açıq tender elan edir.
Elanda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında cari təmir işləri və müxtəlif kabellərin çəkilişi işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hacıyeva Günel, Sektor müdiri
Email: gunel.rzayeva@supremecourt.gov.az
Əlaqə telefonu: +994 55 208 64 74



**“CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINDA BƏRPA, TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

“Cəbrayıl, Qubadlı Və Zəngilan Rayonlarında Bərpa, Tikinti Və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Zəngilan şəhərində yerləşən 2-ci yaşayış məhəlləsinin tikinti-quraşdırma işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zaur İbrahimov, Satınalmalar və təchizat departamentinin müdiri
Email: zaur.ibrahimov@jgz.gov.az
Əlaqə telefonu: +994 51 207 89 98



**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ARXİV İDARƏSİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi açıq tender elan edir.
Elanda Azərbaycan Respublikasının Dövlət arxiv xidməti təşkilatlarının Bakı şəhərində yerləşən inzibati binalarında quraşdırılmış isitmə və soyutma sistemlərinə illik servis xidmətinin nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aqil Məmmədov, aparıcı məsləhətçi
Email: a.memmedov@milliarxiv.gov.az
Əlaqə telefonu: +994 12 562 98 92



**"BAKI ŞƏHƏR ƏSASLI TİKİNTİ VƏ TƏMİR" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların təmiri işlərinin layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Xələf Şıxəliyev, Mühəndis
Email: ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu: +994 50 612 15 27





**www.atmia.az**